# Yuxarı sinif şagirdlərinə biznes fəaliyyətilə bağlı verilən məlumatların onların iqtisadi tərbiyəsi üçün əhəmiyyəti

**Lətifə Ələkbərova**
*Əməkdar Mədəniyyət işçisi, dosent*
**E-mail:** latifaalakbarli@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. F.B. Sadıqov,
iqtisad. ü.f.d., dos. R.F. Sadıqov

**Açar sözlər:** yuxarı sinif şagirdləri, biznes fəaliyyəti, biznes planı, iqtisadi biliklər, iqtisadi tərbiyə, sahibkarlıq hissi tərbiyəsi
**Ключевые слова:** старшеклассники, деятельность в области бизнеса, план бизнеса, экономическое воспитание, воспитание чувства предпринимательства
**Key words:** high school students, business activity, business plan, economic education, education of entrepreneurship

Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə şagirdlərə bazar iqtisadiyyatı ilə bağlı biliklərin verilməsi, bu sahədə onların müxtəlif məzmunlu informasiyalarla təmin edilməsi vacib hesab olunmuşdur. Ona görə də hazırkı, bazar iqtisadiyyatı şəraitində yuxarı sinif şagirdlərinə biznes fəaliyyətilə bağlı məlumatların verilməsi mühüm əhəmiyyət kəsb edir. Birincisi ona görə ki, belə informasiyalar müasir dövrün tələblərinə uyğun olduğu üçün mühüm aktuallıq kəsb edir.

İkincisi, belə məlumatlar yuxarı sinif şagirdlərinin iqtisadi tərbiyəsinin formalaşmasını təmin etmiş olur. Belə məlumatların verilməsi zamanı şagirdlərin biznes fəaliyyətinə cəlb etmək üçün həmin məlumatların və informasiyaların sistemli şəkildə verilməsi məqsədəuyğun hesab edilir. Ona görə həm humanitar fənlərin, həm təbiət fənlərinin, həm də dəqiq elmlərin tədrisi zamanı belə informasiyaların sistem halında verilməsi çox faydalıdır. Belə informasiyalar içərisində biznes şərikliyi ilə bağlı verilən məlumatları ilkin məlumat hesab etmək olar. Biznes Şərikliyi ilə bağlı informasiya və məlumatların, beynəlxalq təcrübə nümunəsi əsasında verilməsi mühüm aktuallıq kəsb edir.

ABŞ-ın biznes mühitilə bağlı informasiyaların birində göstərilir ki, mülkiyyətçi biznesini genişləndirmək istədikdə, bunun bir yolu şərikli biznes yaratmaqdır – bu, iki və daha artıq şərik şəxsin mənfəət üçün biznes yaratması deməkdir. Şəriklərin hüquq və vəzifələri biznesin yaradıldığı ştatın qanunları ilə və şəriklərin qanuni razılıq müqavilələri ilə tənzimlənir. Bir qayda olaraq müqavilə hər bir şərikin qoyduğu kapitalın məbləğini müəyyənləşdirir və şəriklərdən hər birinin öhdəsinə götürdüyü vəzifələri aydınlaşdırır. Şəriklik müqaviləsi eyni zamanda “susan şəriki” də nəzərdə tuta bilər; belə şərik idarəetmə prosesində iştirak etmir, lakin biznesə ancaq pul qoyur.

Şəriklik idarəetmə istedadının yaranmasının rəhnidir. Şəriklərdən biri ərzaqla təminetmə sahəsində, digəri marketinqdə ixtisaslaşa bilər. Şəriklik də fərdi mülkiyyətçilik kimi, hökumətin korporasiyalarından tələb etdiyi hesabların çoxundan azaddır. Bundan əlavə, o, korporasiya ilə müqayisədə vergi ödəmək məsələsində daha yaxşı vəziyyətdədir. Şəriklər federal vergiləri əldə etdikləri qazanca müvafiq olaraq ödəyirlər, biznesə bundan başqa vergi qoyulmur (1, 75-76).

Yuxarı sinif şagirdlərini biznes fəaliyyəti ilə tanış edərkən biznes şərikliyi barədə verilən

məlumatların çox mühüm əhəmiyyəti vardır. Çünki, yuxarı sinif şagirdləri təhsil illərindən sonra özəl müəssisələrdən hər birinin şərikliyinin hazır strukturu ilə tanış ola bilərlər. Lakin şərikliyin digər tərəflərilə də onları tanış etmək yaxşı olardı.

Şərikliyin əsas xoşa gəlməyən bir cəhəti odur ki, hər bir üzv şərikliyin bütün vəzifələrinə görə məsuliyyət daşıyır; bu elə bir aktdır ki, hər bir şəriki hüquqi cəhətdən başqası ilə bağlayır. Əgər şəriklərdən biri biznesdən böyük məbləğdə pul götürür və onu xərcləyirsə, borcu başqaları ödəməlidirlər. Şərikliyin başqa bir xoşagəlməz əsas cəhəti də var: qərarçıxarma prosesində hamı iştirak edir. Əgər şəriklər arasında daimi və ciddi narazılıq olursa, biznes bundan zərər çəkir (1, 76).

Yuxarı sinif şagirdlərinə biznes fəaliyyətilə bağlı verilən məlumatların hərtərəfli olması onların gələcəkdə seçilən-sayılan biznesmenlər olmasına dəlalət edir.

Yuxarı sinif şagirdlərinin kiçik biznes (Kiçik Biznes, KB) fəaliyyətilə məşğul olmalarına istiqamət verən məlumatların, informasiya və tövsiyələrin də əhəmiyyəti böyükdür.

Kiçik Biznes. Kiçik biznesin təhlili ilə məşğul olanlar etiraf edirlər ki, bu biznes formasının icra edilməsinə bir neçə iqtisadi amil maneçilik törədir. Bu amillərin qarşısını almaq üçün qanunvericilik müstəqil federal agentlik kimi Kiçik Biznes Administrasiyasını yaratdı. Vaşinqtonda və bütün ölkə boyu bölgə idarələri mütəxəssislər hazırladılar ki, kiçik biznes yaratmaq arzusunda olanlara yaxud belə biznesləri artıq idarə edənlərə peşəkar ekspertiza və maddi yardım təmin etsinlər.

Nəzərdə tutulan simvolik bir ildə Kiçik Biznes Administrasiyası zəmanət verir ki, kiçik bizneslərə 3,5 milyard dollara yaxın bank borcu veriləcək. Bu borclar, adətən, avadanlıq, mal və lazımı maşınlar almaq üçündür. (1. Səh, 76).

Kiçik biznes üçün ayrılan kreditlər onun bütün modelinin, infrastrukturunun yaradılması üçün təminat verir. İkinci bir tərəfdən deməliyik ki, digər ölkələrdə də kiçik biznesin qurulması üçün kifayət qədər kreditlərin ayrılması ona görə vacibdir ki, belə ayrılmalar, borclar, kreditlər digər ölkələr və xalqlar üçün əsil örnəkdir.

Kiçik Biznes Administrasiyasının ən nadir cəhəti yeni və ya büdrəyən bizneslərə onun idarəetmə yardımıdır. BORC proqramında təqaüdə getmiş uğurlu sahibkarlar başqalarına kömək proqramı təklif edirlər.

Kiçik Biznes Administrasiyası ştat agentlikləri və universitetlərlə birgə işləyərək, eyni zamanda, 700-ə yaxın Kiçik Biznes İnkişafı Mərkəzinə də rəhbərlik edir ki, bunlar da yeni və artıq fəaliyyət göstərən kiçik bizneslərə texniki və idarəetmə yardımı təmin edirlər. (1, 76).

Belə yardımları təşkil edən Kiçik Biznes Administrasiyası yardımları verməklə təkcə biznes strukturlarının fəaliyyətini genişləndirməklə işini bitmiş hesab etmir, həm də əhalinin sosial məişət səviyyəsinin və iqtisadi imkanlarının yüksəldilməsinə köməklik göstərmiş olur. Yuxarı sinif şagirdlərinə biznes fəaliyyətilə bağlı ötürülən məlumatların müqayisəli şəkildə verilməsi, müqayisə nümunəsi kimi Amerika Birləşmiş Ştatlarının Kiçik Biznes Administrasiyasının örnək kimi seçilməsi mühüm əhəmiyyət kəsb edir.

Kiçik Biznes Administrasiyası ciddi şəkildə cəhd edir ki, fəlakətlərdə qalan xalqlara, xüsusən Afrikadan, Asiyadan, İspaniyadan olan amerikalılara yardım fondları proqramlaşdırsınlar. Agentlik eyni zamanda ixracat potensialı olan kiçik bizneslər üçün beynəlxalq marketlər və müştərək müəssisə imkanları müəyyənləşdirməkdən ötrü ciddi proqramlar da hazırlayır.

Bundan əlavə, Kiçik Biznes Administrasiyası özünün fəlakətdən xilasetmə proqramı ilə məşhurdur. Fəaliyyətə başladığı gündən bəri Kiçik Biznes Administrasiyası daşqından, tufandan, fırtınadan və başqa təbii fəlakətlərdən fiziki zərər çəkən ev sahiblərinə və biznes

firmalarına yardım təklif etmişlər (1, 76-77).

Yuxarı sinif şagirdlərinə verilən belə məlumatlar əgər bir tərəfdən təhsil alanların iqtisadi tərbiyəsini inkişaf etdirirsə, digər tərəfdən onları biznes fəaliyyətinə istiqamətləndirir. Ona görə belə məlumatları verərkən françayzinq və ticarət mərkəzlərinin, dükanlar şəbəkəsinin yaradılması ilə bağlı məktəbliləri beynəlxalq təcrübə ilə tanış etmək lazımdır. Belə məlumatlardan biri də françayzinq və dükanlar şəbəkəsi ilə bağlı olan məlumatlardır.

Kiçik biznesə asanlıqla tətbiq olunan bir iş təcrübəsi kimi, frənçayzinq son illərdə güclü inkişaf etmişdir. Restoran biznesində ümumi iş təcrübəsi kimi françayzinq böyük korporasiyanın iqtisadi səmərəliliyini yeni mülkiyyət mənfəətləri ilə birləşdirir. Bu işədə böyük şirkət sahibkarların fərdi və ya kiçik bir qrupuna onun adından istifadə etməyə (əksər hallarda xüsusi reklam naminə) və bəzi hallarda alınan gəlirin bir neçə faizini özlərinə götürmək şərti ilə onun məhsulunun satışına icazə verir. Adətən, aparıcı şirkətin işçisi olmayan sahibkar nisbətən böyük şəbəkənin bir və ya bir neçə vahidini işlətməyə və onları idarə etməyə görə məsuliyyət daşıyır. Fərdi sahib və ya sahiblər müəssisə ilə bağlı baş verə biləcək halların böyük əksəriyyətini də öz üzərlərinə götürməlidirlər (1, 77).

Yeri gəlmişkən demək lazımdır ki, Azərbaycanda françayzinq təcrübəsi demək olar ki, xalq təsərrüfatının əksər sahələrində tətbiq olunur. "Hətta Azərbaycan Respublikasının Təhsil Qanunu"nda françayzinq təcrübəsinin tətbiqi ilə bağlı kifayət qədər tövsiyələr verilir. Məktəblilərə françayzinqlə bağlı verilən məlumatları elə tərtib etmək lazımdır ki, bu məlumatlar onların gələcək fəaliyyətinə düzgün istiqamət vermiş olsun.

Françayzinqin iqtisadiyyat üçün həm dəyəri, həm də mənfəəti var. Dükan şəbəkəsinin artımı fərdi və müştərək mülkiyyətin inkişafına mane olmuşdur. Dükanlar şəbəkəsi kütləvi üsuldan istifadə edir - çox böyük miqdarda alır, yüksək həcmdə satır, özünəxidmətə əsaslanır – bu da imkan verir ki, dükanlar şəbəkəsində mallar kiçik xüsusi mülkiyyət dünaklarında olduğundan daha ucuz satılsın. Şəbəkə supermanketləri müştəriləri cəlb etmək üçün daha aşağı qiymətə satmaq yolundan istifadə edərək, çoxlu kiçik baqqaliyyə dünakları açmağa nail olublar (1, 77). Amerika iqtisadiyyatından götürülən bu nümunələr biznes fəaliyyəti ilə maraqlanan məktəblilər üçün çox faydalıdır. Birincisi ona görə ki, belə məlumatlar məktəblilərin iqtisadi tərbiyəsini formalaşdırmaqla yanaşı onların biznes fəaliyyətinə yönəldilmələrinə şərait yaradır.

İkinci bir tərəfdən məzunların demək olar ki, böyük əksəriyyəti biznes qurmaq, hətta ali təhsili Biznes Universitetində davam etdirmək, ali təhsili başa vurduqdan sonra səhmdar cəmiyyəti yaratmaq istəyirlər. Belə məktəblilərə səhmdar cəmiyyətləri barədə də məlumatlar vermək yaxşı olar. İlk növbədə bu cəmiyyətin məqsədi barədə məlumat verilməlidir.

Səhmdar cəmiyyətinin əsas məqsədi:

— yeni məhsulların istehsallarının mənimsənilməsi;

— istehsalların mənimsənilmə müddətinin aşağı salınması;

— yeni məhsulların istehsal həcmi tempinin artırılması;

— yeni məhsulların reallaşdırılmasının həyata keçirilməsi;

— göstərilən əsasdan müəssisənin mənfəətinin çoxaldılması və rentabelliyin yüksəldilməsi (2, 498).

Məktəblilərə səhmdar cəmiyyətlərinin növləri, tipləri, formaları, məqsəd və vəzifələri barədə məlumatların verilməsinin də əhəmiyyəti böyükdür. Çünki məktəblilərin əksəriyyəti məktəbi bitirdikdən sonra hərbi xidmətə gedəcəklər və hərbi xidmətdən qayıdandan sonra yaradacaqları səhmdar cəmiyyətlərinin məqsəd və vəzifələrilə yanaşı bu məqsədə nail olmağın yollarını da arayıb-axtarmaq istəyirlər. Ona görə də məktəblilərə bu barədə də

məlumat vermək lazımdır.

Məqsədə nail olmaq yolları

— yeni məhsul istehsalını mənimsəmək üçün müəssisədə həyata keçirilən rekonstruksiya işlərinin sürətləndirilməsi;

— müəssisədə istehsal həcmini artırmaqla bərabər, bazara daha yüksək keyfiyyətli, rəqabət qabiliyyətli, əhalinin zövqünü oxşayan məhsul çıxarmaq;

— yeni məhsul istehsalının mənimsənilməsi, onun istehsalı və satışının təşkili;

— yeni məhsulların layihələşdirilməsi və bu işləmələri "nou-hau"kimi intellektual bazarında satmaq;

— istehsal olunan məhsulların satış bazarının genişləndirilməsi;

— istehsal olunan məhsulların dizaynını daima təkmilləşdirmək, məhsulları istehlakçılar arasında tanıtdırmaq;

— xarici ölkələrdə, o cümlədən keçmiş SSRİ məkanında yaradılan dövlətlərdə özünün nümayəndəliklərini yaratmaq.

Səhmdar Cəmiyyətinin gələcək inkişafını təmin etmək üçün rekonstruksiya və təmir üzrə aşağıdakı tədbirlər həyata keçirilməlidir:

— bütün sexlərin damında təmir işləri aparılmalıdır (2, 498);

Yaxşı olar ki, belə məlumatların ardınca məktəblilərə səhmdar cəmiyyətində yaradılan fabriklərin, sexlərin, kiçik müəssisələrin fəaliyyətindən praktik iş təcrübəsi ilə bağlı məlumatlar da verilsin. Nümunə üçün bir səhmdar cəmiyyətinin yaratdığı sexin fəaliyyətinə diqqət edək:

— yapışqan sexində bitum əsasında dam örtüyü istehsalı və üzvi birləşmələr əsasında yapışqan istehsalının mənimsənilməsi;

— ömrünü başa vurmuş bu sexdə yeni istehsalın həyata keçirilməsi üçün rekonstruksiya işlərinin aparılması və sexin yeni avadanlıqlarla təchiz edilməsi;

— Haşiyə materialları sexində polietilen plyonka istehsalının yaradılması;

— Sexin yeni avadanlıqlarla təchiz edilməsi;

— Bu sexin daxilində əlif istehsalının həyata keçirilməsi üçün müvafiq avadanlıqların və texniki vasitələrin alınıb quraşdırılması və yeni texnologiyanın istismara verilməsi;

— təmir-tikinti sexi üçün nəzərdə tutulan – tikinti başa çatmayan binada rekonstruksiya işlərinin aparılması ağac və burada ağac emalı və taxta-şalban məmulatları istehsal etmək üçün lazım olan avadanlıqlarının alınıb quraşdırılması;

— penopolistirol plitələr və bloklardan müxtəlif növ konstruktiv materiallar istehsalının təşkil edilməsi. Bunlardan, əsasən, kiçik və orta sahəli mənzillər, kommunal-məişət binaları, ticarət köşkləri və müxtəlif binaların tikintisi üçün konstruktiv materialların istehsalı nəzərdə tutulur

— sexlər üzrə həyata keçiriləcək tədbirlər və ona lazım olan investisiyanın məbləği cədvəl verilmişdir.

Biznes planın məqsədə nail olma bölməsilə tanışlığın əhəmiyyəti daha böyükdür. Birincisi, ona görə ki, şagirdlər iqtisadi planlaşdırmanın nəzəri və praktik mahiyyətilə tanış olduqdan sonra onun səmərəsi ilə də tanış olurlar. Bütün bunlar isə şagirdlərin iqtisadi biliklərini artırır. İkincisi, biznes planın məqsədə nail olma yolları ilə tanış olan şagirdlərdə sahibkarlıq hissi yüksəlir. Beləliklə iqtisadi tərbiyənin inkişaf etdirilməsi üçün geniş imkanlar yaranır (2, 499).

Belə məlumatlar biznes fəaliyyəti ilə məşğul olmaq istəyən məktəbliləri həm nəzəri, həm də praktik cəhətdən biznes fəaliyyətinə istiqamətləndirir.

Məktəblilərin biznes infrastrukturunun bir sıra elementləri ilə də tanış etmək faydalıdır.

Müasir bazar iqtisadiyyatı şəraitində biznesin infrastrukturunun elementləri aşağıdakılardır:

— Kredit sistemi və kommersiya bankları;
— Əmtəə, xammal, fond və valyuta birjalarında həyata keçirilən vasitəçilik işi;
— İnformativ texnologiya və işgüzar ünsiyyət vasitələri;
— Vergi sistemi və vergi müfəttişliyi;
— Kommersiya sığorta sistemi, sığorta kompaniyaları;
— Xüsusi reklam və kütləvi informasiya agentlikləri;
— Ticarət palatası;
— İctimai birliklər;
— Gömrük sistemi;
— Muzdla işləyən fəhlələrin həmkarlar ittifaqı;
— Kommersiya-sərgi kompleksləri;
— Ali və orta ixtisas iqtisadi təhsil sistemi;
— Məsləhətverici və auditor kompaniyaları;
— İşgüzar aktivliyi stimullaşdırmaq üçün yaradılan ictimai və dövlət fondları;
— Xüsusi azad sahibkarlıq zonaları (2, 500).

Belə informasiyalar hər şeydən əvvəl bazar iqtisadiyyatı şəraitində yaşayan məktəblilərin biznes fəaliyyətinə istiqamətləndirilməsi, onları səhmdar cəmiyyətləri yaratmağa yönəldilməsi çox faydalıdır. Ona görə ki, bütün bunlar məktəblilərin iqtisadi tərbiyəsinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

İqtisadi tərbiyənin ümumtəhsil məktəblərində əsasən iki yolla həyata keçirilməsi mümkün sayılır. Birincisi fənlərin tədrisi yolu ilə. İkincisi dərsdənkənar tədbirlər yolu ilə. Ümumtəhsil məktəblərində bütün fənlərin tədrisində şagirdlərin iqtisadi tərbiyəsini inkişaf etdirmək üçün geniş imkanlar vardır. Yəni istər humanitar, istər dəqiq, istərsə də təbiət elmlərilə bağlı olan fənlərin tədrisində şagirdlərə hər cür iqtisadi biliklər vermək mümkündür. Bunun üçün ibtidai siniflərdən başlayaraq şagirdlərə iqtisadi biliklərin verilməsinə məqsədyönlü, planlı və mütəşəkkil yanaşmaq lazım gəlir. İbtidai siniflərdə "Oxu", "Ətraf aləmlə tanışlıq", "Riyaziyyat" və "Əmək" dərslərində şagirdlərə hər cür iqtisadi biliklər vermək mümkündür. Yuxarı siniflərdə isə tarix, coğrafiya, iqtisadi coğrafiya, fizika, riyaziyyat və informatika ilə bağlı müvafiq biliklərin verilməsi zamanı şagirdlərdə hərtərəfli iqtisadi tərbiyə elementləri aşılamaq olar. Dərsdənkənar tədbirlərdə iqtisadiyyatla, əməklə, işgüzarlıqla, halallıqla, sahibkarlıqla, bazar iqtisadiyyatı ilə bağlı keçirilən tədbirlərdə şagirdlərin iqtisadi tərbiyəsinin formalaşdırılmasına nail olmaq olar (2, 501).

Ona görə də orta ümumtəhsil məktəblərinin həm təlim prosesində, eləcə də dərsdənkənar tədbirlərdə şagirdləri iqtisadi biliklərlə zənginləşdirmək, o cümlədən, həm Azərbaycan şəraitində, həm beynəlxalq miqyasda cərəyan edən iqtisadi informasiyalarla şagirdləri tanış etmək, onların iqtisadi tərbiyəsini formalaşdırmaq baxımından çox faydalıdır. Ona görə ki, müstəqillik dövrünün bazar iqtisadiyyatı şəraitində yaşayan məktəblilərə mühüm aktuallıq kəsb edən belə informasiyaların verilməsi həm də onların gələcək həyata hazırlanması kimi dəyərləndirilməlidir.

**Məqalənin aktuallığı.** Məqalədə ilk dəfə olaraq şagirdlərin iqtisadi tərbiyəsini formalaşdırmağa xidmət edən yeni və ən zəruri biliklərin verilməsi yolları öz əksini tapmışdır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq nəzərdə tutulan iqtisadi biliklər Azərbaycanın və Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatı ilə bağlı olan yeni informasiyalar və məlumatlar əsasında sistemə salınmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə şagirdlərin iqtisadi tərbiyəsi ilə

bağlı verilən ən yeni nəzəri və praktik nümunələr müasir məktəb təcrübəsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu nümunələrdən orta ümumtəhsil məktəblərinin həm təlim prosesində, həm də dərsdənkənar tədbirlərində yuxarı sinif şagirdlərinin iqtisadi tərbiyəsinin formalaşdırılması üçün istifadə oluna bilər.

Nəticə etibarı ilə deyə bilərik ki, orta ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin iqtisadi tərbiyəsinin təşkili üçün ən müasir informasiya və məlumatlardan, habelə didaktik materiallardan istifadə etməklə şagirdləri biznes fəaliyyətinə və səhmdar cəmiyyətləri yaratmağa istiqamətləndirmək olar.

## Ədəbiyyat

1. Robert L. Makkan. Amerika iqtisadiyyatının əsas cəhətləri. Birləşmiş Ştatların Məlumat Agentliyi. Bakı, 1991.
2. F. Sadıqov. Pedaqogika: Dərs vəsaiti. Bakı: Adiloğlu, 2012.
3. V.Bədəlov. Maddi-texniki potensialın yüksəldilməsində lizinq xidmətlərinin təkmilləşdirilməsi / "Gənclər və sabahın innovasiyalı iqtisadiyyatı" mövzusunda ali təhsil müəssisələri tələblərinin II respublika konfransının materialları. Bakı, Tofiq-M nəşriyyatı, 2015.
4. R. Əsgərov, M. Qurbanov. Modul tipli kurikulumlar və peşə-ixtisas təhsili. Təlim texnologiyalarının mahiyyəti və məzmunu. Bakı: Mütərcim, 2015.
5. Azərbaycan Sovet Ensiklopediyası. VII cild. Bakı, 1983.
6. İ. Abbasov, R. Sadıqov. Menecment. Bakı: Biznes Universitetinin nəşri, 2013.

**Л. Алекберова**

## Важность информации о предпринимательской деятельности для старшеклассников и ее значимость при экономическом воспитании

## Резюме

Статья включает систему научно-педагогической информации о предпринимательской деятельности, предоставленной старшеклассникам. В числе данных сведений анализируются научно-педагогические аспекты предпринимательской деятельности, делового партнерства, а также деятельность малого, среднего и других видов бизнеса. В данном случае раскрывается воспитательная значимость информации, предоставляемой старшеклассникам. Отмечается, что данные сведения связаны с экономическим воспитанием старшеклассников. Статья завершается теоретико-практической значимостью проблемы, ее научной новизной и выводами.

**L. Alakbarova**

## The importance of information on enterprise activity for senior grants and its significance in economic education

## Summary

The article includes a system of scientific and pedagogical information on entrepreneurial activities provided to high school students. Among these data, the scientific and pedagogical aspects of entrepreneurial activity, business partnership, as well as the activities of small, medium and other types of business are analyzed. In this case, the educational significance of the information provided to high school students is revealed. It is noted that this information is related to the economic education of high school students. The article concludes with the theoretical and practical significance of the problem, its scientific novelty and conclusions.

**Redaksiyaya daxil olub:** 09.03.2018